2019-cu ilin yanvar-may aylarında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 151089 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi yaranmışdır. Xarici ticarət dövriyyəsinin 127395 min ABŞ dollarını, yaxud 84,3 faizini ixrac, 23694 min ABŞ dollarını, yaxud 15,7 faizini idxal təşkil etmişdir.

İxracın dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 127 milyon 395 min ABŞ dolları təşkil etmiş, 103 milyon 701 min Amerika Birləşmiş Ştatları dolları dəyərində müsbət saldo yaranmışdır.